# Daşnak xislətinin dəyişməyən eybəcər üzü

## Artıq bunu xarici ölkələrin tədqiqatçıları da təsdiqləyirlər

**Bəzən millətin adı onun kim olduğundan xəbər verir. Bu fikrin ermənilərə daha çox aidiyyəti var. Çünki "erməni" sözünü dilimizə gətirəndə təsəvvürümüzdə işğalçı, qəddar, amansız, saxta və eybəcər bir vandal canlanır. Tarixboyu erməni daşnaklarının türklərə - azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının və terror aktlarının sayı-hesabı yoxdur. Ermənilərin içində türklərə qarşı qaynayıb daşan kin, nifrət əsrlər boyu zərrənin zərrəsi qədər də azalmayıb. Əksinə, zaman keçdikcə daha da artıb.**

Ermənilərin kin və küdurət dolu beyinlərində kök salan "dənizdən dənizə böyük Ermənistan" arzusunun gerçəkləşməsi uğrunda uzun illərdən bəri əllərindən gələni etsələr də, bu arzu onların xam xəyalı olaraq qalmaqdadır. Əminliklə demək olar ki, bu, elə xəyal olaraq da qalacaq.

Ermənilərin xam xəyallarını əks etdirən qurama və son sözünə qədər saxta olan tarixdən alim və mütəxəssislərimiz çox yazıblar. Yəqin ki, bundan sonra da yazılacaq və tarixləşdiriləcək. Artıq bu mövzu təkcə ölkəmizin alim və araşdırmaçılarının deyil, dünyanın başqa xalqlarının ziyalı və tədqiqatçılarının da diqqətini cəlb edir. Necə deyərlər, yavaş-yavaş ermənilərin uydurduğu saxta tarix üzərinə həqiqətin işığı düşməyə başlayır.

Litvalı tarixçi-alim Alqimantas Liyekis geniş araşdırmalar apararaq Azərbaycan xalqının tarixini öyrənib, səhih və etibarlı mənbələrə əsaslanaraq çox dəyərli "Millətlərin Qafqaza köçü. XX əsr" adlı kitab yazıb. Oxuculara təqdim etdiyi bu kitabda tarixi faktlarla qədim Azərbaycanın malik olduğu ərazilər, azərbaycanlıların o dövrlərdə burada yaşadığı, eləcə də mədəniyyəti, dövlətçilik ənənələri real faktlarla əks olunub. Kitabın yazılmasında və yayılmasında əsas məqsəd ermənilərin xalqımıza qarşı apardığı qərəzli təbliğatın qarşısını almaq, həmçinin litvalılara bu mənfur millətin Azərbaycanda törətdikləri cinayətləri tarixi sənədlərlə açıb dünya ictimaiyyətinə göstərməkdir.

Litvalı jurnalist Qintaras Visoskasın "Qara bağın faciəsi" adlı kitabında da Azərbaycan və Ermənistan arasındakı münaqişədən bəhs edilir. Müəllif iki xalqın tarixindəki oxşar cəhətlərdən, faktlara istinadən iki əsrdən çoxdur ki, xalqımızın düçar olduğu bəlalardan, üzləşdiyi haqsızlıqlardan yazıb.

Zaman keçdikcə bu mövzunun coğrafiyası da genişlənir. Özbəkistanın məhşur tədqiqatçısı, tarixçi-alimi Şuhrat Nasıroviç ermənilərin törətdikləri soyqırımı ilə bağlı uzun illər araşdırmalar apararaq bir-birindən maraqlı tarixi əsərlər ortalığa qoyub. Bu günədək məşhur tədqiqatçının "Qarabağ - ideyalar müharibəsi", "Türküstan və Cənubi Qafqaz XIX-XX əsrlərdə, Daşnaklar - Fərqanədən Qarabağa qədər" kitabları çap olunub. Uzun araşdırmalardan sonra isə onun "İflas. Milliyyətçilər - Antoqonizm" adlı kitabı işıq üzü görüb.

Şuhrat Barlas türk etnosuna qarşı aparılan soyqırımı siyasətini geniş araşdırdığı "Qarabaq - ideyalar müharibəsi" kitabında erməni daşnaklarının hansı zərərli ideyaları irəli sürdüklərini, insanları ideoloji müharibəyə necə hazırladıqlarını tarixi faktları ortalığa qoyaraq yazır: "Təkzibolunmaz və çoxsaylı arxiv sənədləri sübut edir ki, XX əsrin əvvəllərində böyük dövlətlərin fəal köməyi ilə terrorçu - ekstremist erməni təşkilatlarının Azərbaycan, Şərqi Anadolu və Mərkəzi Asiyanın türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımları dünya tarixinin ən dəhşətli soyqırımlarıdır".

"İflas. Milliyyətçilik - Antaqonizm" kitabında müəllif Özbəkistanda və Azərbaycanda - Qarabağda törədilən terror hadisələrinin oxşar və fərqli cəhətlərini araşdırır, hadisələri faktlara söykənərək müqayisə edir. Şuhrat Barlas bu kitabını yazıb ərsəyə gətirmək üçün 30 ildən çox araşdırma aparıb. İndiyə qədər yazdığı əsərlərdən yararlanaraq, 299 yerli və xarici mənbələrə istinad edib. Onun qələmə aldığı bütün hadisələr arxiv sənədlərinə əsaslanır. Şuhrat Barlas kitabın sonrakı səhifələrində Xocalı faciəsindən də geniş söz açır, tarixi faktları, reallığı, həqiqəti çılpaqlığı ilə oxucuların diqqətinə çatdırır. Erməni faşizminin iç üzünü açıb dünyaya göstərir.

"İflas. Milliyyətçilik - Antaqonizm" kitabında qeyd etdiyimiz məqamlarla yanaşı, indiki Ermənistan torpaqlarının əzəli və tarixi Azərbaycan torpaqları olduğu, o ərazilərin hansı yollarla ermənilərə verildiyi, ermənilərin Cənubi Qafqaza süni və məqsədyönlü şəkildə yerləşdirildiyi, həmvətənlərimizin İrəvandan, Qarabağdan vəhşicəsinə qovulduğu tarixi sənədlərlə sübuta yetirilir.

"İflas. Milliyyətçilik - Antaqonizm " kitabı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması yolunda ən uğurlu addımlardan biridir. Bu kitab həm də çoxsaylı sübut və dəlillərə söykənərək ermənilərin və onlara dəstək olanların iç üzünü açmaqla Orta və Mərkəzi Asiyada, Qafqazda müsəlman əhaliyə qarşı xüsüsi amansızlıqla davranan ermənilərin cinayətini, türkə nifrətini əks etdirən tarixin real güzgüsüdür.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 31 mart, № 66.- S.5.